Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Obyektiv Rusiya ekspertlərinin "Rossiya-1" TV-dəki müsahibələrə sərrast yanaşmaları - "Paşinyan hamının qapısını çaldı, Sorosa da zəng etdimi?"

**Cəbhədə son erməni təxribatları Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllini artıq mümkünsüz hala gətirir. Elə bu səbəbdən Azərbaycan ərazilərinin işğalına artıq güc vasitəsilə son qoyulacağı qaçılmaz sayılır. Bu zaman qələbənin mütləq şəkildə Azərbaycanın tərəfində olacağı bütün dünya boyu etiraf edilir.**

### Müharibənin məsuliyyəti tam Ermənistanın üzərindədir

Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh müstəvisində həllində daim maraqlı tərəf kimi çıxış edib. Ancaq Ermənistanın hərəkətləri, xüsusən da baş nazir Nikol Paşinyanın fəaliyyəti, dedikləri sülhün üzərindən xətt çəkməkdə idi. Bunun ardınca düşmənin cəbhə təxribatları vəziyyəti daha da qarışdırdı. Məhz bu vəziyyətdə Azərbaycanın düşmən təxribatlarına güc yolu ilə cavab verməkdən başqa çıxış yolu qalmadı. "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə etdiyi çıxışda Azərbaycan Prezidenti İlham Əliyev də məsələni bu rakursdan çox aydın izah edib: "Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər? Axı, ATƏT-in Minsk Qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır" və üstəlik deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk Qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük".

Beləliklə, bu açıqlamadan görünür ki, hazırda cəbhə zonasında hərbi əməliyyatların başlanmasına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Bunu rusiyalı hərbi ekspert İqor Korotçenko öz "Twitter" səhifəsində yazdığı statusda da xüsusi olaraq vurğulayır: "Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ hadisələri ilə bağlı eksklüziv şərhlər etdiyi "60 dəqiqə" verilişinin canlı yayımını izlədim. Əliyev Paşinyanı yerində oturtdu - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məktəbi məhz budur". O, daha bir paylaşımında isə Paşinyanın dünya liderlərinə zənglərini xatırladıb: "Paşinyan hər kəsə zəng elədi? Bəs Sorosa zəng elədi?".

Beləliklə, təcavüzkar siyasətini ölkənin təhlükəsizlik strategiyasında əks etdirən Ermənistanın siyasəti münaqişənin daha da alovlanmasına xidmət edir. Belə ki, bu ölkə işğalçı qüvvələrini Azərbaycanın ərazilərindən çıxarmaq əvəzinə, gərginliyi artırmaq məqsədinə xidmət eydiyini əməlləri ilə açıq şəkildə nümayiş etdirir.

### Razılıq olmasa, ermənilərin itkisi böyük olacaq

Sentyabrın 27-dən indiyə qədər davam edən hərbi əməliyyatların gedişində düşmən çoxsaylı itkilərə məruz qalıb. Düşmənin müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı erməni tərəfini daha çox itkiyə məruz qoyur. Azərbaycanın şərtləri qəbul edilmədiyi halda, xüsusən işğal altındakı ərazilərdən düşmən ordusu çıxmadığı halda bunun güc yolu ilə həyata keçirilməsi qaçılmaz sayılır. Görünür, hadisələr elə bu səpkidə də inkişaf edəcək. Çünki son döyüşlər bir daha sübut etdi ki, Ermənistan Cənubi Qafqazda sabitliyi pozan başlıca amildir. Onlar nifrət, kin, işğalçı düşüncəsi və əməli ilə bölgədə sülhün, sabitliyin, əməkdaşlığın yaranmasına mane olur. Elə rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov da məsələni məhz bu rakursdan izah edir: "Danışıqlar, ilk növbədə Ermənistanın təqsiri üzündən pozulduğuna görə müharibənin bərpası labüd oldu. Ermənistan rəhbərlərinin mövqeyi açıq-aşkar danışıqları pozmağa yönəlmişdi. Bu, əməkdaşlığa qarşı atılan addımları özündə ehtiva edirdi".

Ekspert xatırladır ki, "Qarabağ klanı" hakimiyyətdən uzaqlaşdıqdan sonra hamı Ermənistanda yeni iqtidarın Qarabağ məsələsini həll etmək yolu ilə irəli gedəcəyinə ümid edirdi: " Lakin seçkilər keçdi, heç bir dəyişiklik də olmadı. Hərbi əməliyyatların bu halda başlaması yalnız vaxt məsələsi idi. Hamının yekdil fikrincə, Dağlıq Qarabağ uğrunda döyüş əməliyyatları aparmaq Azərbaycanın haqqıdır, çünki dünyanın bütün ölkələri Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır, BMT də bu mənada qəti mövqeyini dəfələrlə ifadə edib. Rusiya da dəfələrlə bildirib ki, Ermənistan KTMT çərçivəsində müttəfiqdir, amma Dağlıq Qarabağ Ermənistana aid deyil, odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı hər hansı öhdəlik daşımır". Politoloq Rusiyanın bu münaqişəni həll etməkdə tərəflərə kömək etməyə hazır olduğunu da qeyd edib: "Həll yolu Rusiya tərəfindən çoxdandır təklif edilib. Bu, Kazan düsturunun əsasıdır". Bununla belə, ekspertin rəyincə, Rusiya KTMT vasitəsilə Ermənistan hökumətinə təsir göstərə bilməz: "Rusiya Ermənistan rəhbərliyini dəfələrlə Azərbaycanla danışıqlar masasına əyləşin, Dağlıq Qarabağ ətrafındakı rayonları qaytarın, müvəqqəti sülh sazişi imzalayıb Dağlıq Qarabağın ümumi statusuna dair geniş danışıqlara başlayın deyə təklif edib. Ermənistan qulaq asmır. Ona görə də indi Rusiyanın Ermənistana dəstəyi məhduddur. Nikol Paşinyan da amerikanyönümlü, əks-Rusiya siyasətçi kimi tanınır. O, Sorosun adamıdır. Bizdə ona etimad etmirlər, amma Ermənistanın daxili işlərinə də qarışmırıq. Yəni erməni xalqının öz işidir, əgər Paşinyanı bəyənirlərsə, qoy Paşinyan olsun. Belə vəziyyətdə hərbi əməliyyatların gedişində Ermənistanın itkiləri artacaq". Ekspert bunu Azərbaycanın güclü orduya malik olması ilə izah edir.

Digər tərəfdən Ermənistanda ictimai-siyasi və iqtisadi vəziyyət keçmiş iqtidarların dövründəkindən fərqlənmir. Əhalinin güzəranı günü-gündən ağırlaşır və bu halda müharibəni davam etdirmək Ermənistan üçün çox çətindir. Ermənilərin başlıca dolanışıq mənbəyi sayılan Rusiyanın qapılarını bağlaması isə Ermənistanda gərginliyi daha da artırıb. Ermənistandakı mövcud hökuməti və onun yürütdüyü siyasəti Rusiya, hətta ABŞ da tam dəstəkləmir. Onlar hakimiyyətdəki siyasi qüvvələrin təcrübəsizlikdən ölkəni daha ağır vəziyyətə sürüklədiyini bilirlər. Belə vəziyyətdə Ermənistanın müqavimət imkanları sıradan çıxır.

### Ermənistan beynəlxalq miqyasda da ciddi zərbələr alıb

Azərbaycan ordusunun hərbi əməliyyatlarının gedişində ciddi itkilərə məruz qalan Ermənistan beynəlxalq miqyasda da sərt zərbələr alır. İlk növbədə o baxımdan ki, Azərbaycanın başladığı hərbi əməliyyatlar beynəlxalq miqyasda da dəstəklənir. ATƏT-in Minsk Qrupunun amerikalı sabiq həmsədri Riçard Hoqland bunun səbəblərini belə izah edir: "Beynəlxalq hüquqa görə, Ermənistan başqa bir suveren dövlət olan Azərbaycanın suveren ərazisinə soxulub və işğal edib. Bu da Azərbaycanın işğala qarşı addımlarına tam haqq qazandırır. ABŞ-ın da əsas siyasəti bütün millətlərin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləmək və qorumaqdır".

O da faktdır ki, bugünədək nə BMT-nin, nə də ATƏT-in Minsk Qrupunun Ermənistana ünvanlanan çağırışları nəticə verib. Digər tərəfdən, atəşkəs razılaşması olması və diplomatik görüş prosesi davam etdiyi halda Ermənistan silahlı qüvvələri hücum edirsə, dünya qəbul edir ki, Azərbaycan özünü müdafiə etmək haqqına sahibdir. Burada Azərbaycanın hərbi əməliyyatlarını dayandıra biləcək yeganə hüquqi amil BMT Təhlükəsizlik Şurasının Ermənistana qarşı lazımi tədbirləri görməsi ola bilər. Türkiyənin Mərmərə Universitetinin eksperti Səlami Kuran məsələ ilə bağlı bildirir: "ATƏT-in Minsk Qrupu beynəlxalq hüquqa əsasən işğal altında olan Dağlıq Qarabağın Azərbaycana geri qaytarılması nöqtəsində 30 ildir heç bir dəqiq addım atmayıb. BMT Təhlükəsizlik Şurası 4 qətnamənin qəbulundan sonra onların həyata keçirilməsi üçün daha effektiv addımlar atsaydı, Ermənistan bu işğala son vermiş olacaqdı. Bu addımlara siyasi, diplomatik və iqtisadi sanksiyalar daxildir. BMT-nin vəzifəsi qınamaq, atəşkəs mesajı vermək deyil. Siyasi açıqlamalarla işin içindən çıxmağa çalışır, sanksiya mərhələsinə keçə bilmir. Beynəlxalq hüququ çeynəyən Ermənistan da bundan cəsarətlənir. Azərbaycan da bu durumda "göbəyini özü kəsir". Digər ekspertlər də beynəlxalq hüququn tam Azərbaycanın yanında olduğunu bildirir və bu şəraitdə Bakının istəyinə daha asan çatacağını qeyd edir.

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**